

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 145 (23.787)

12 avqust 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə görüşmüşdür.

Ali Məclisin Sədri ölkələrimiz arasındakı münasibətlərdən bəhs etmiş, ölkələrimiz arasında əlaqələrin inkişafında İsrailin Azərbaycandakı səfirliyinin fəaliyyətini vurğulamışdır. Muxtar respublikanın uzun illər blokada şəraitində yaşadığını bildirən Ali Məclisin Sədri kommunikasiyaların bərpasından sonra əlaqələrin müxtəlif sahələrdə – təhsil, səhiyyə, turizm, kənd təsərrüfatı və yeni texnologiyaların tətbiqi istiqamətində genişlənəcəyinə əminliyini ifadə etmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən səfir Corc Dik Naxçıvan Muxtar Respublikasına səfərinin əhəmiyyətinə toxunmuşdur. Azərbaycandakı multikultural və tolerant mühitdən bəhs edən  diplomat əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyini bildirmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

İcmal

## Ölkənin gələcək müstəqilliyinə, sosial-iqtisadi tərəqqisinə hesablanmış müdrik ideyaların real bəhrələrini yaşayan doğma diyar – NAXÇIVAN

### *Bunu ötən ayın ümumi mənzərəsi aydın əks etdirir*

***Bu, bir tarixi reallıqdır ki, ölkəmizin bugünkü müstəqilliyinin, davamlı inkişaf və tərəqqi yolunun əsası məhz 1969-cu ilin 14 iyulunda ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə qoyulmuşdur. Ötən əsrin 70-ci illərindən başlayaraq dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanın bütün regionlarında, eləcə də muxtar respublikada kompleks islahatlar həyata keçirilmiş, geniş quruculuq işləri aparılmışdır. Ulu öndər ölkəyə rəhbərliyinin hər iki dövründə qədim tarixə, özünəməxsus dövlətçilik ənənələrinə malik olan, geostrateji əhəmiyyətliliyi ilə seçilən Naxçıvanın hərtərəfli inkişaf etdirilməsini dövlət siyasətinin prioriteti hesab etmişdir. Ölkə başçısı cənab İlham Əliyevin Heydər Əliyev ideyalarına sadiqliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu ideyaların muxtar respublikada əzmkarlıq və qətiyyətlə reallaşdırmasının nəticəsidir ki, Naxçıvan çoxəsrlik tarixində əsl inkişaf və tərəqqi dövrünü yaşamaqdadır.***



#### *Strateji sahə olan taxılçılığın inkişafı üçün yaradılan imkanlar məhsuldarlıqla nəticələnir*

Muxtar respublikada sosial-iqtisadi tərəqqi baxımından qazanılan çoxsaylı uğurlar sırasında ərzaq təhlükəsizliyinin təmin edilməsi, bunun nəticəsində isə ixrac imkanlarının da artırılması, xüsusilə qeyd olunmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli “Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı tədbirlər haqqında” Sərəncamına əsasən bu sahədə görülən mühüm tədbirlər kənd təsərrüfatının, xüsusilə strateji sahə olan taxılçılığın inkişafına geniş imkanlar açmışdır. Belə ki, taxılçılıq muxtar respublikada ötən ilin payız əkinlərində əsas yer tutmuş, həmin ilin payızında və cari ilin yazında muxtar respublikada 32721 hektar sahədə taxıl əkilmişdir. Mövsüm boyu əkin sahələrinə göstərilən aqrotexniki qulluq öz bəhrələrini vermiş, sahələrdən hektarın orta məhsuldarlığı 31,6 sentner təşkil etməklə 103372 ton yüksəkkeyfiyyətli taxıl götürülmüşdür.

İyunun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Araz” Elm-İstehsalat Birliyinin əkin sahələrində olmuş, muxtar respublikada taxıl biçininin gedişi ilə maraqlanmışdır. Ali Məclisin Sədri yaradılan şəraitin nəticəsində muxtar respublikada taxılçılıq sahəsində ciddi irəliləyişə nail olunduğunu vurğulamış, eyni zamanda bildirmişdir ki, müxtəlif ərazilərdəki məhsuldarlıq fərqinin aradan qaldırılmasına diqqət yetirilməli, məhsuldarlıq artırılmalı, əkin zamanı aqrotexniki qaydalara əməl olunmalı, məhsuldar toxumlardan istifadə edilməli, taxılçılıq rayonlarının texnika təminatını bundan sonra da diqqətdə saxlamalı, müvafiq tədbirlər həyata keçirilməli, əhali maarifləndirilməli, taxıl sahələrinin hektarının yox, məhsuldarlığın artırılmasına nail olunmalıdır. Baxış zamanı məlumat verilmişdir ki, “Araz” Elm-İstehsalat Birliyi üçün 87 hektar əkin sahəsi ayrılmışdır. Bu ilin məhsulu üçün 55 hektar sahədə taxıl əkini keçirilmişdir ki, bunun da 45 hektarını buğda, 10 hektarını isə arpa təşkil edir. Muxtar respublika rəhbəri biçin zamanı yanğın təhlükəsizliyinə ciddi nəzarət olunması, əkin kvotasının hazırlanması, muxtar respublikanın iqlim şəraitinə uyğun toxumların alınması və toxum bankının yaradılması  ilə bağlı tapşırıqlar vermişdir.

#### *İnsan amilinə dəyər verilərsə...*

Səhiyyənin inkişafı istiqamətində aparılan məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, muxtar diyarımızda müasir səhiyyə infrastrukturu və kadr təminatı tibbi xidmətin səviyyəsini xeyli yüksəltmişdir. Muxtar respublikanın bütün yaşayış məntəqələrini əhatə edən və vətəndaşların sağlamlıqlarının qorunması istiqamətində görülən işlər insan amilinə verilən dəyərin ifadəsidir. İyulun 2-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yoluxucu mərkəz kimi fəaliyyət göstərəcək modul tipli xəstəxanası istifadəyə verilmişdir.

Ali Məclisin Sədri yeni səhiyyə ocağında yaradılan şəraitlə tanış olmuş, məlumat verilmişdir ki, 186 çarpayılıq modul tipli xəstəxana 3 əsas korpus və 4 yardımçı binadan ibarət olmaqla, ən müasir tibbi avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublika rəhbəri tibbi xidmətin təşkili və ərazidə yaşıllıqların artırılması barədə müvafiq tapşırıqlar vermişdir.

#### *Şərqin qapısı Naxçıvan Azərbaycan-Türkiyə arasında sarsılmaz birlik və qardaşlıqda etibarlı körpüdür*

Yeni mərhələyə qədəm qoymuş, strateji tərəfdaşlıq səviyyəsində daha da inkişaf etdirilən Azərbaycan-Türkiyə əlaqələrində Azərbaycanın qədim diyarı, Şərqə, Türk dünyasına açılan etibarlı qapısı – Naxçıvan Muxtar Respublikası müstəsna yerə və rola malikdir. İyulun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşmüşdür. Görüş zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrindən bəhs edən Ali Məclisin Sədri ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının özünəməxsus yeri olduğunu, bir çox istiqamətdə əməkdaşlığın inkişaf etdiyini vurğulamış, Zəngəzur dəhlizinin açılmasının və Qars-Naxçıvan dəmir yolunun tikintisinin əhəmiyyətini diqqətə çatdırmışdır. Ali Məclisin Sədri ölkələrimiz arasındakı münasibətlərin yeni mərhələyə yüksəldiyini bildirmiş, Şuşa Bəyannaməsinin yüz il bundan əvvəl imzalanmış Qars müqaviləsinə əsaslandığını diqqətə çatdırmış, səfirin Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etmişdir. Cahit Bağçı səmimi qəbula görə minnətdarlıq etmişdir.

26-31 iyul tarixlərində Azərbaycan və onun Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı, ümumilikdə, 200-dən çox gəncin iştirakı ilə muxtar respublikamızda “Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi”nin reallaşdırılması bir daha sübut etdi ki, ortaq tarixə və mədəniyyətə, eyni soy-kökə malik iki qardaş xalq arasındakı sarsılmaz birlik və həmrəylik xalqlarımızın gələcəyi olan gənclik tərəfindən də varislik prinsiplərinə əsaslanaraq yaşadılır, inkişaf etdirilir. İyulun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi”ndə iştirak etmək üçün muxtar respublikada səfərdə olan Türkiyə Gənclik Vəqfinin nümayəndə heyəti ilə görüşmüşdür. Ali Məclisin Sədri ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinə və Naxçıvanın Türk dünyası üçün əhəmiyyətinə diqqət çəkmiş, “Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi”nin muxtar respublikada təşkilinə görə təşəkkürünü bildirmişdir. Azərbaycanda və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında gənclərlə işin prioritet sahələrdən biri olduğunu vurğulayan Ali Məclisin Sədri bu istiqamətdə görülən işlərdən bəhs etmişdir. Qeyd olunmuşdur ki, Naxçıvanda gənclərin təhsilli və sağlam böyüməsi diqqətdə saxlanılır, onlar dövlət quruculuğu işində fəal iştirak edirlər. Türkdilli Ölkələrin Dövlət Başçılarının Doqquzuncu Zirvə Görüşünün və Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirildiyini xatırladan Ali Məclisin Sədri “Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi”nin də gənclər arasında qarşılıqlı əlaqələrin qurulması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulamışdır. Türkiyə Gənclik Vəqfinin baş direktoru Enes Eminoğlu səmimi qəbula və göstərilən diqqətə görə minnətdarlıq etmiş, “Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi” barədə məlumat vermişdir.

#### *Şəhidlərimizə sonsuz ehtiram nümunəsi*

Torpaqlarımızın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə başa çatan İkinci Qarabağ müharibəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları və Naxçıvandan olan könüllülər də iştirak etmiş, böyük şücaət göstərmiş, şəhidlərimiz və qazilərimiz olmuşdur. Dövlətimiz tərəfindən bütün şəhidlərin yüksək ad və medalla təltif olunması onlara dərin ehtiramın bariz nümunəsidir. İyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş və “Vətən uğrunda” medalı ilə təltif olunmuş şəhid polkovnik-leytenant Anar Əliyevin və şəhid kapitan Nihad Babayevin ailə üzvləri ilə görüşmüşdür.

Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr və 15 dekabr tarixli sərəncamları ilə şəhid polkovnik-leytenant Əliyev Anar Vaqif oğlunun və şəhid kapitan Babayev Nihad Akif oğlunun ölümündən sonra təltif olunduqlarını qeyd etmiş, şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmişdir. Ali Məclisin Sədri şəhidlərimizin hər ikisinin hərbi təhsil aldığını, onların Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Orduda 2014-cü ildən zabit kimi xidmət etdiklərini, fəaliyyətləri dövründə zabit şərəfini ləyaqətlə qoruduqlarını bildirmiş, şəhidlərin ailə üzvlərinə vətənpərvər övladlar yetişdirdiklərinə görə təşəkkür etmiş, Vətənə xidməti ən ali vəzifə hesab edən qəhrəman şəhidlərimizin həm dövlətimizə, həm də ailələrinə başucalığı

Ardı 2-ci səhifədə

gətirdiyini vurğulamışdır.

Ali Məclisin Sədri İkinci Qarabağ müharibəsinin ən yüksək təltifi olan "Vətən Müharibəsi Qəhrəmanı" adının döş nişanı və vəsiqələrini, eləcə də "Vətən uğrunda" medallarını şəhid polkovnik-leytenant Anar Əliyevin atası Vaqif Əliyevə və şəhid kapitan Nihad Babayevin atası Akif Babayevə təqdim etmişdir. Şəhid ataları göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişlər.

### *Azərbaycanın incisinin köksündə yeni incilər bərq vuracaq*

Ümummilli liderimiz Heydər Əliyevin hələ sovetlər dövründə Azərbaycana rəhbərlik etdiyi zaman əsasını qoyduğu quruculuq və inkişaf strategiyası bu gün muxtar respublikanı tamamilə əhatə etmişdir. Azərbaycanın incisi sayılan Ordubad rayonuna da quruculuq ərməğanlarından pay düşmüşdür. Həyata keçirilən quruculuq tədbirləri nəticəsində rayonun Vələver, Dırnıs və Kələki kəndləri muxtar respublikanın müasir yaşayış məntəqələri sırasına qoşulur. İyulun 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Vələver, Dırnıs və Kələki kəndlərində inşa olunan sosial obyektlərdə aparılan tikinti işlərinə baxmışdır. Vələver kəndində zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq 198 şagird yerlik, Dırnıs kəndinə 216 şagird yerlik olacaq məktəb binalarında, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və digər dövlət qurumlarının yerləşəcəyi kənd mərkəzlərində, əhaliyə nümunəvi xidmətin təşkil olunması üçün müasir şərait yaradılacaq xidmət mərkəzlərində aparılan tikinti işləri barədə muxtar respublika rəhbərinə məlumat verilmişdir.

Kələki kəndində isə Ali Məclisin Sədrinə bu yaşayış məntəqəsində də kənd və xidmət mərkəzlərinin tikintisi ilə bağlı məlumat verilmişdir. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, digər dövlət qurumları, feldşer-mama məntəqəsi fəaliyyət göstərəcək, xidmət mərkəzində yaradılacaq şərait isə kənd sakinlərinin rahatlığının təmin edilməsinə hesablanıb.

Muxtar respublikanın kəndlərində yolların abadlaşdırılması ilə bağlı görülən işlərin davamı olaraq Vənənd-Pəzməri avtomobil yolu da yenidən qurulur ki, iyulun 13-də Ali Məclisin Sədri burada görülən işlərlə tanış olmuşdur. Bildirilmişdir ki, ümumi uzunluğu 20 kilometr olan yolun eni 8 metrdir. Yolda 3 körpü əsaslı təmir olunub, 2 suötürücü kanal tikilib, su keçidləri və 8800 metr suaparıcı kanalın qurulmasına başlanılıb. Başkənd, Vələver, Qoruqlar, Anaqut, Dırnıs, Kələki, Unus, Pəzməri kənddaxili yollarına isə qum-çınqıl qatı verilir.

Ordubad rayonunun dağlıq kəndlərində aparılan quruculuq tədbirləri çərçivəsində turizm kəndləri olan Unus və Pəzməri də inkişafın yeni mərhələsinə qədəm qoyur. İyulun 13-də Ali Məclisin Sədri Pəzməri kəndində görülən işlərlə maraqlanmış, bildirilmişdir ki, 2 mərtəbədən ibarət olacaq məktəb binasında nümunəvi şərait yaradılacaqdır. Dövlət qurumlarının birgə fəaliyyətində mühüm əhəmiyyətə malik olacaq kənd mərkəzində də tikinti işləri keyfiyyətlə aparılır. Xidmət mərkəzində isə xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılacaq, sakinlər işlə təmin olunacaqdır.

Unus kəndində həyata keçirilən quruculuq işləri ilə tanışlıq zamanı Ali Məclisin Sədri demişdir: ***"Kəndlərdə quruculuq işləri ona görə aparılır ki, insanlar rahat və firavan yaşasınlar. Həyata keçirilən tədbirlər məskunlaşmanı da artıracaqdır. Artıq Pəzməri turistik bölgəyə çevrilir. Kəndə turist axını sakinlərin istehsal etdiyi məhsulların alınmasına da səbəb olacaqdır ki, bu da əhalinin güzəranının daha da yaxşılaşması ilə nəticələnəcəkdir".*** Muxtar respublika rəhbəri kəndlərdə tikinti işlərinin keyfiyyətlə aparılması barədə tapşırıqlar vermiş, turizm əhəmiyyətliliyi ilə seçilən Pəzməri şəlaləsinin yerləşdiyi ərazidə və Anaqut kəndi ərazisində inşa edilən "Xan Çinar" İstirahət Mərkəzində də olmuş, görülən işlərlə maraqlanmış, Pəzməridən şəlaləyə gedən yolun yenidən qurulması, istirahət mərkəzinə gedən yolun abadlaşdırılması, ərazidə yaşıllıqların artırılması barədə tapşırıqlar vermişdir.

### *Enerji təhlükəsizliyi muxtar respublikanın strateji qələbəsidir*

Dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin ideyalarının inamla gerçəkləşdirilməsinin nəticəsidir ki, bu gün muxtar respublikada digər sahələrdə qazanılan uğurlarla yanaşı, enerji təhlükəsizliyinə də nail olunmuş, bütün yaşayış məntəqələri təbii qazla fasiləsiz təmin edilmişdir. Bu gün sənaye obyektlərinə və əhaliyə verilən təbii qazın fasiləsiz çatdırılması üçün infrastruktur daim təkmilləşdirilir, mövcud imkanlardan səmərəli istifadə olunur. Naxçıvan şəhərində yeni Qaz Kompressor Stansiyasının qurulması da bu tədbirlərin davamıdır. İyulun 14-də – ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin ildönümündə yeni stansiya istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Muxtar respublika rəhbəri ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin ildönümü və Qaz Kompressor Stansiyasının istifadəyə verilməsi münasibətilə qaz təsərrüfatı işçilərini təbrik etmiş, stansiyanın qurulmasında əməyi olanlara təşəkkür etmişdir. Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsinin həm Sovet hakimiyyəti, həm də müstəqillik illərində həyata keçirilmə mərhələlərini təhlil etmiş, vurğulamışdır ki, 2005-ci ildən etibarən qısa müddətdə – 3 il ərzində Naxçıvan Muxtar Respublikasının bütün yaşayış məntəqələri tamamilə təbii qazla təmin olunmuşdur.

Muxtar respublika rəhbəri Naxçıvanda qaz təsərrüfatında aparılan təkmilləşdirmə və yenidənqurma işlərindən danışmış, qeyd olunmuşdur ki, bir neçə il bundan əvvəl Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz kəmərinin tikintisi başa çatdırılmışdır. Nəzərdə tutulub ki, bu xətt gələcəkdə İğdır-Naxçıvan qaz kəmərinə birləşdirilsin və axın Naxçıvan şəhəri istiqamətində olmaqla, istismar edilsin. 80 kilometrə yaxın uzunluğu olan qaz kəmərinin boru xəttindən anbar kimi istifadə etmək üçün Qaz Kompressor Stansiyasının qurulmasına ehtiyac var idi. Stansiyanın qurulmasında məqsəd Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz kəmərində təzyiqin artırılmasıdır. Bu da boruda 1 milyon 500 min kubmetrə yaxın qaz yığılmasına və qəza zamanı muxtar respublikada əhali abonentinin 8-10 gün qazla təmin olunmasına imkan verəcəkdir. Eyni zamanda İğdır-Naxçıvan qaz kəməri istifadəyə verildikdən sonra Naxçıvan-Şahbuz və Naxçıvan-Culfa istiqamətlərində boru xətlərinin təbii qazla doldurulması təmin ediləcəkdir. Stansiyanın istifadəyə verilməsi muxtar respublikada qaz təsərrüfatının idarə olunmasını da yaxşılaşdıracaq, təzyiq boru xəttində yaranacaq ehtiyat hesabına nizamlanacaqdır.

Sonra stansiyaya baxış olmuş, məlumat verilmişdir ki, 25 min kubmetr/saat gücə malik yeni stansiya hesabına muxtar respublikanın qaz təsərrüfatı sisteminə gün ərzində əlavə olaraq 600 min kubmetr təbii qazın verilməsi mümkün olacaqdır. Stansiyanın istifadəyə verilməsi ilə əlaqədar 10 yeni iş yeri açılmışdır. Ali Məclisin Sədri Qaz Kompressoru Stansiyasında texniki istismar qaydalarına əməl olunması, kadr hazırlığına diqqət yetirilməsi və ərazidə yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

### *Sənətə və sənətkara dəyər millilik etalonudur*

Ümummilli liderimiz Heydər Əliyevin hələ Sovetlər Birliyi dövründə milli mədəniyyətin, incəsənətin inkişafındakı misilsiz xidmətlərindən biri də 1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatının, 2000-ci ildə isə həmin təşkilatın bazasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yaradılmasıdır. Ötən dövrdə Naxçıvan rəssamlıq sənəti böyük inkişaf yolu keçmiş, qədim və zəngin tarixə malik olan Naxçıvan rəssamlıq sənəti Ali Məclis Sədrinin diqqət və qayğısı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Müstəqillik illərində Rəssamlar Birliyinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmış, görkəmli rəssamlarımızın yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir. Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq, Naxçıvan Müəllimlər İnstitutunda isə Təsviri incəsənət müəllimliyi ixtisasları açılmışdır. Hazırda həmin ixtisaslar üzrə, ümumilikdə, 226 tələbə təhsil alır. Muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin, incəsənət və bədii sənətkarlıq məktəblərinin rəsm dərnəklərində də 600-ə yaxın uşaq və gənc rəssamlıq sənətinin sirlərini öyrənir. Eyni zamanda Naxçıvan Dövlət Rəsm Qalereyasında dəyərli rəsm əsərləri mühafizə, təbliğ və nümayiş olunur. Bir sözlə, 59 üzvü olan Rəssamlar Birliyi hərtərəfli qayğı ilə əhatə olunub, rəssamların yaradıcılıq imkanları xeyli genişləndirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il martın 2-də Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi barədə Sərəncam imzalaması, iyulun 16-da Rəssamlar Birliyinin 50 illik yubileyinin qeyd olunması muxtar respublikada rəssamlıq sənətinin inkişafına göstərilən dövlət qayğısının bariz ifadəsidir.

Yubiley tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Rəssamlar Birliyinin 50 illik yubileyini muxtar respublikanın ictimai-mədəni həyatında əlamətdar hadisə kimi dəyərləndirmiş, bu münasibətlə rəssamları, sənətsevərləri və ictimaiyyət nümayəndələrini təbrik etmişdir. Ali Məclisin Sədri çıxışında Naxçıvan rəssamlıq məktəbinin qədim və zəngin tarixinə nəzər salaraq Naxçıvan rəssamlıq sənətinin varislik ənənələri əsasında inkişaf etdirildiyini vurğulamış, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin keçdiyi yolu böyük mədəniyyət salnaməsi kimi dəyərləndirmişdir.

Muxtar respublika rəhbəri tariximizin və milli dəyərlərimizin təbliği, gənclərin vətənpərvərlik tərbiyəsi və günümüzün real mənzərəsinin yaradılmasının rəssamların yaradıcılığında xüsusi yer tutmalı olduğunu vurğulamış, bu yolda birlik üzvlərinə uğurlar arzulamış, yubiley münasibətilə onları bir daha təbrik etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 15 iyul tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında rəssamlıq sənətinin inkişafı sahəsində səmərəli fəaliyyətlərinə görə "Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı" fəxri adı ilə təltif olunan rəssamlara fəxri adların döş nişanları və vəsiqələrini təqdim etmişdir.

Rəssamlar Birliyinin 50 illik yubiley sərgisinə baxış zamanı Ali Məclisin Sədri rəsm dərnəklərinin fəaliyyətinin gücləndirilməsi və varisliyin təmin olunması, hədiyyəlik rəsm və əl işlərinin hazırlanması barədə tapşırıqlar vermişdir.

### *Yüksək poliqrafiya mədəniyyəti ziyalılığa çağırışdır*

Bu il muxtar respublika tarixində əlamətdar bir hadisə – Naxçıvanda mətbuatın yaranmasının yüz illiyi qeyd olunur. Ali Məclis Sədrinin 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər Planına əsasən "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin silsilə tədbirlərlə qeyd edildiyi bir dövrdə muxtar respublikada mətbuatın inkişaf etdirilməsi ilə paralel olaraq nəşriyyat işinin yüksək səviyyədə təşkil olunması istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni kompleks istifadəyə verilmiş, ən müasir mətbəə avadanlıqları quraşdırılmış, maddi-texniki baza gücləndirilmişdir. Bütün bunların nəticəsi olaraq yüksək poliqrafiya mədəniyyəti formalaşmış, mətbəə işinin müasir tələblər səviyyəsində qurulması bu gün muxtar respublikada nəşr olunan bütün qəzetlərin yüksək keyfiyyətlə çapına, həmçinin kitabların müasir tələblərdə nəşrinə şərait yaratmışdır. Milli Mətbuat Gününün qeyd olunduğu bir ayda birliyin Naxçıvan şəhərindəki Kitab Evində yeni sərgi-satış mərkəzinin yaradılması da bu sahədə görülən işlərin davamıdır. İyulun 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş kitablar, müstəqillik illərində Naxçıvanla bağlı çap olunmuş elmi ədəbiyyatlar, oxunması zəruri olan kitablar, Yazıçılar Birliyi üzvlərinin əsərləri, müxtəlif bədii ədəbiyyatlar, dəftərxana ləvazimatları, müəllimlər üçün dərs planları, lüğət dəftərləri, hüsnxətlər, dəftərlər, məktəbli kitabçaları, ümumilikdə, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş 15 minə yaxın məhsul satışa çıxarılmışdır. Həmçinin burada "Nəşriyyat xidmətləri" bölməsi yaradılmış, mətbəə işlərinin görülməsi üçün çoxfunksiyalı çap avadanlıqları qoyulmuşdur. Mərkəzdə 3 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri vurğulamışdır ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzinin fəaliyyəti həm çap olunmuş məhsulların sərgi-satışını təşkil etmək, həm də dövlət büdcəsi ilə maliyyələşən təşkilatları dəftərxana ləvazimatları ilə – standartlara uyğun və keyfiyyətli məhsullarla təmin etməkdən ibarətdir. Mərkəzin fəaliyyət göstərməsi həm də muxtar respublikanın tanıdılmasında böyük əhəmiyyətə malik olacaqdır. Çünki burada ölkəmizin və Naxçıvanın tarixini, mədəniyyətimizi, milli dəyərlərimizi əks etdirən kitablar satışa çıxarılıb.

Muxtar respublika rəhbəri dövlət idarə və müəssisələrinə aid dəftərxana ləvazimatlarının qanunvericiliyə uyğun hazırlanması və mərkəzin fəaliyyətinin təşkili barədə müvafiq tapşırıqlar vermişdir. Sonra Ali Məclisin Sədri Kitab Evindəki digər dəftərxana ləvazimatları, eləcə də idman mallarının satış mərkəzlərində də olmuş, göstərilən xidmətlərlə maraqlanmışdır.

### *Uğurlu yekun həm də uğurlu başlanğıc deməkdir*

Muxtar respublikada iqtisadiyyatın, eləcə də elm, təhsil, səhiyyə, turizm və digər sahələrin inkişafı, əhalinin sosial rifah halının yüksəlməsi ilbəil deyil, hər ötən yarım ildə dinamik templə müşahidə olunmaqdadır. 2021-ci ilin birinci yarısında da muxtar respublikada həyata keçirilən ardıcıl tədbirlər sosial-iqtisadi tərəqqiyə öz töhfəsini vermiş, dayanıqlı və tarazlı inkişaf təmin olunmuşdur. Cari ilin birinci yarısında ümumi daxili məhsulun həcmi 1 milyard 328 milyon manat olmuşdur ki, bunun da 86 faizi özəl bölmənin payına düşmüşdür. Ötən dövrdə muxtar respublikada sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə 18 milyon manata yaxın kredit verilmiş, 55 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Hazırda muxtar respublikada 384 növdə məhsulun istehsal olunması dayanıqlı inkişafın nəticəsi kimi mühüm əhəmiyyətə malikdir. Cari ilin ilk 6 ayında muxtar respublikada 116 obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, 168 obyektin tikintisi və yenidən qurulması isə davam etdirilmişdir. Xüsusilə Duzdağda yeni şaxtanın istifadəyə verilməsi mühüm iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də təbii sərvətimiz olan duzun müasir metodlarla çıxarılması, emalı və ixracına geniş imkanlar açmışdır. 2021-ci ilin birinci yarısında muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində də sistemli tədbirlər görülmüş, bərpa olunan enerji mənbələrindən istifadə diqqət mərkəzində saxlanılmışdır. Bu dövrdə Şərur rayonunda 5 meqavat gücündə Günəş Elektrik Stansiyasının, Culfa rayonunda isə 1,1 meqavat gücündə Günəş-Külək Hibrid Elektrik Stansiyasının istifadəyə verilməsi muxtar respublikanın enerji tələbatının ödənilməsində alternativ və bərpa olunan enerji mənbələrinin payını artırmışdır.

Muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafının cari ilin ötən dövründə də davam etdirilməsi ilə bağlı bu məlumatlar, iqtisadi-siyasi təhlillər, statistik müqayisələr iyulun 8-də keçirilən altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzəsində öz əksini tapmışdır. Məruzədə vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikasında 2021-ci ilin birinci yarısında bütün sahələrdə inkişaf təmin edilmiş, quruculuq işləri aparılmış, əhalinin rifahı daha da yaxşılaşdırılmışdır. Bu dövrün ən mühüm hadisəsi mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri olmuş, muxtar respublikanın inkişafını yüksək qiymətləndirən ölkə Prezidenti demişdir: ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir... Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir".*** Ali Məclisin Sədri ilin birinci yarısında əldə edilmiş sosial-iqtisadi inkişafın bundan sonra da davam etdirilməsi məqsədilə aidiyyəti üzrə tapşırıqlar vermişdir.

Ali Məclisin Sədri 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirmiş, qarşıdakı dövrdə inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublika sakinlərinə uğurlar arzulamışdır.

*İyul ayının ümumi mənzərəsinin təhlili onu təsdiq edir ki, istər ötən ayın, istərsə də ötən yarım ilin yekunları ilə bağlı faktlar ümummilli lider Heydər Əliyevin hələ Sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyi dövründə ölkənin gələcək sosial-iqtisadi tərəqqisinə, yüksəlişinə hesablanmış müdrik ideyalarının real bəhrələridir. Ali Məclisin Sədri demişdir:* ***"Müstəqil Azərbaycanda əsası 1969-cu ilin 14 iyulunda qoyulan Heydər Əliyev siyasi xətti və yolu uğurla davam etdirilir. Bu yol Azərbaycanı Sovet hakimiyyəti illərində güclü dövlətə çevirdi. Eyni zamanda 1993-cü ildən bu siyasətin davam etdirilməsi nəticəsində ölkəmiz günü-gündən güclənir, inkişaf edir, dünya dövlətləri sırasında öz layiqli yerini tutur".***

**Mehriban SULTAN**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

***Səkkiz mağaradan ibarət Biçənək mağaraları Naxçıvançay hövzəsinin yuxarı hissəsində, Biçənək kəndindən 3,2 kilometr şimalda, Dərələyəz silsiləsinin cənub yamacında 5,5-24 milyon il əvvəl yaranmış Miosen yaşlı süxurlar içərisində formalaşmışdır. Okean səviyyəsindən 2360 ilə 2378 metr hündürlüklər arasında yerləşən və qədim insanların yaşadıqları, daha böyük olan altı mağaranın üçü Biçənək dərəsinə perpendikulyar şəkildə Kaha dərəsinin sağında, digər üçü isə solunda yerləşir. Mağaraların yerləşdiyi antiklinoriumun cənub qanadı cənub-qərbə doğru 210-250 dərəcə, şimal qanadı isə şimal-şərqə doğru 50-70 dərəcə azimut istiqamətində uzanır. Cənub qanadın meyilliyi 20 dərəcə, yuxarı hissədə 90 dərəcədə, bəzi hissələrdə isə asılı yamac təşkil edir. Yamacların həddindən artıq meyilli olması qədim insanların burada qorunmasına, onlardan sığınacaq kimi istifadə etməsinə şərait yaratmışdır.***

*Tarixin izi ilə*

## Biçənək mağaraları –
### *qədim yaşayış məskənimiz, füsunkar təbiət gözəli*

Ərazini təşkil edən süxurlar Biçənək qatına məxsus pladioklaz, biotit, arqit, maqnetit tərkibli andezit, eləcə də kvars, pladioklaz, biotit, maqnetit, apatit və sirkondan ibarət vulkanik tuflu brekçilərdən təşkil olunmuşdur. Onları birləşdirən sementin əsas tərkibi açıq-boz rəngli vulkan külüdür və bu da, təxminən, süxur kütləsinin 90 faizini təşkil edir. Bu baxımdan mağaraların yerləşdiyi ərazini müəyyən mənada geologiya muzeyi də adlandırmaq mümkündür.

Relyefin ayrı-ayrı yerlərində andezit-dasit və andezit-bazaltdan təşkil olunmuş daykalar nəzərə çarpır. Miosenə məxsus Sarmat və Meotis çöküntülər (7-12 milyon il əvvəl) Aşağı Pliosenə aid Akçaqıl, Kimmerli, Ponta məxsus (6-7 milyon il əvvəl) vulkanik çökmə süxurlarla əvəzlənir. Miosenin sonunda və Pliosendə tektonika yenidən artır və ərazini tutan şərti olaraq "Sarmat" adlanan dəniz tamamən çəkilir və onun yerində Aşağı Pliosenə aid Meotis-Pont kontinental çöküntüləri yaranır. Bundan sonra tədricən ərazidə çayların fəaliyyəti formalaşır və allüvial-prolüvial çökmə təbəqəsi yaranır. Dağəmələgəlmədə son proses 2 milyon il əvvəl başa çatır.

Dərənin sağında aşağıdan birinci mağaranın hündürlüyü, təqribən, 3,5, eni 4, dərinliyi isə 9,2 metrdir. Mağaranın giriş hissəsində o, şimal və şimali şərq olmaqla, iki qola ayrılır. Tavanda və divarlarda ocaq izlərinin olması, eləcə də qalın kül təbəqəsi buranın qədimdə yaşayış yeri kimi istifadə olunduğunu göstərir. Giriş hissədəki iri daşlar vaxtilə burada divar hörgüsünün mövcudluğunu göstərir.

Birinci mağaranın ikinci salonunun giriş hissəsinin eni 2,7, hündürlüyü isə 2,1 metrdir. Bu salonun qurtaracaq hissəsi 100-110 dərəcə şimala doğru istiqamətlənərək tədricən daralır.

Dərənin yuxarı hissəsində birinci mağaradan 40-45 metr daha yuxarıda nisbətən kiçik digər mağara mövcuddur. Sıldırım qayalar içərisində formalaşan bu mağara dik yamaclı uçurumlu yerdə yerləşir. Çox ehtimal ki, daha hündürdə yerləşən, giriş-çıxışı olduqca çətin olan bu mağara gözətçi və ya müşahidə məntəqəsi üçün istifadə edilmişdir. Bu gün dağ qartallarının yuvasına çevrilən mağaranın tavanında yanmamış karbohidrogen və tüstü izləri göstərilən fikri təsdiq etməkdədir.

Bu mağaranın aşağı hissəsində orta debitli təbii bulaq mövcuddur. İrili-xırdalı belə bulaqlar dərənin yuxarı hissəsində birləşərək Naxçıvançayın sol qollarından biri olan Kaha çayını təşkil etməkdədir. Yeri gəlmişkən, dərənin aşağı hissəsindəki əhali tərəfindən "Darı yeri" adlanan daşlardan təmizlənmiş geniş, yastı düzənlik sahə vaxtilə burada əkinçiliyin də müəyyən qədər inkişaf etdiyini göstərməkdədir.

Mağaranın qarşı tərəfində brekçilərdən təşkil olunmuş dik yamacda üç böyük mağara mövcuddur. Bir-biri ilə 30-40 dərəcə bucaq

Mağaranın yerləşdiyi ərazinin ümumi görünüşü



altında birləşən iki mağara dərənin yuxarı hissəsində meyilliyi 30-35 dərəcə olan böyük bir sahədə birləşir. Birinci mağaranın uzunluğu 50, hündürlüyü, təqribən, 30, giriş hissəsinin eni isə 20-22 metrdir.

Sol yamacın ikinci mağarası yuxarıda təsvir olunan mağara ilə bu sahədə görüşür. Sahənin dərəyə yaxın hissəsində iri qayalardan müdafiə və mühafizə məqsədləri üçün sədd qurulmuş və bu sədd sonradan dağılmışdır. İkinci mağaranın aşağı hissəsində içəriyə keçmək üçün xüsusi qapı mövcuddur. Düzbucaqlı şəklində olan qapı qayalardan çapılaraq hazırlanmışdır. Qapının üst hissəsinə mağaranın divarlarından çapılmış, bu gün də öz bütövlüyünü saxlamış daş kanal vasitəsilə su daxil olmuşdur. Qapının çıxış hissəsində bizim tərəfimizdən oxunması mümkün olmayan alban yazıları mövcuddur. Bu iki mağaranın birləşdiyi ərazi vaxtilə məbədin və ya mağaraların inanc yeri olduğunu göstərir. Fikrimizcə, məbədə daş qapıdan keçən insanlar qapı üzərindən tökülən su ilə paklanırmışlar. Qapının alt hissəsində daşdan yonulmuş kiçik hovuz mövcuddur. Beləliklə, mağaraya daxil olan və mağaradan çıxan hər bir adam bu hovuzdan keçmək məcburiyyətində qalırdı.

Qapının digər maraqlı xüsusiyyəti onun çox hündürdə dik yamacda yerləşməsidir. Qapının aşağı hissəsinin hündürlüyü mağaranın giriş hissəsinin hündürlüyü ilə eynidir. Bu isə onu söyləməyə ehtimal verir ki, yuxarıda qeyd etdiyimiz sədd daxili hissədən torpaq və daşla doldurulmuş və sədd dağıldıqdan sonra materiallar eroziyaya uğrayaraq çay vasitəsilə daşınmışdır.

Burada yaşayan qədim əcdadlarımızın əsas məşğuliyyəti köçəri heyvandarlıq olmuşdur. Bu gün mağaraların yerləşdiyi ərazi heyvandarlıq üçün ən əlverişli mövqeyə, eləcə də mötədil iqlimə və zəngin yem bazasına malikdir.

Mağaranın mədəni təbəqəsində tapılan məişət və ovçuluq əşyaları, eləcə də mağara yaxınlığında okean səviyyəsindən 2130 metr hündürlükdə yerləşən qədim yaşayış yerinin xarabalıqlarında tapılan karvansara və su dəyirmanının qalıqları burada yaşamış qədim türk əcdadlarımızın tarixi və məişətindən xəbər verən qiymətli etnoqrafik materiallardır.

Vaxtilə ərazini daha böyük təbii meşə arealı əhatə etmişdir. Bu amil burada daimi məskunlaşmanı yaradan əsas səbəblərdən biri olmuşdur. Qeyd etmək lazımdır ki, son illər muxtar respublikada təbiəti mühafizəyə diqqətin artırılması nəticəsində meşə areallarının sahəsi 1990-1994-cü illərə nisbətən 2 dəfədən çox artmışdır. Bu artım mağaraların yerləşdiyi Naxçıvançay hövzəsinin Kuküçay qolunda daha aydın nəzərə çarpır.

Qədim əcdadlarımız, eyni zamanda mühüm karvan yollarının keçdiyi ərazilərə nəzarət etmişlər. Bu isə onlarda ticarətin inkişafına, eləcə də oturaq həyat tərzinə keçməyə imkan vermişdir. Qədim karvan yollarının əsas qollarından biri indiki Naxçıvan Muxtar Respublikasının ərazisindən, o cümlədən Biçənək aşırımından keçmişdir (Budaqov B.Ə.,1998; БСЭ, 1955). Yolun buradan keçməsinin başlıca səbəbi əlverişli mövqe ilə yanaşı, isti dövrdə karvanların təchizatı üçün zəngin yem bazasının mövcudluğu, içməli su təminatı və təbii rekreasiya imkanları olmuşdur. Təsadüfi deyil ki, buna görə də Biçənək aşırımının cənub hissəsində bu günə qədər digər bir karvansaranın xarabalığı qalmaqdadır.

Bütün bu fikirlər mağaralardan daha sonralar karvansara kimi istifadə olunma ehtimalını artırır. İndiyə kimi ədəbiyyatlarda, tarixi mənbələrdə öz əksini tapmayan və bu gün də, demək olar ki, tanınmayan mağaralarda coğrafiyaçı speoloq, geoloq, geomorfoloqlarla yanaşı, arxeoloq və tarixçilərin iştirakı ilə kompleks tədqiqat işləri aparılmalı, mağaralar elmi cəhətdən ətraflı tədqiq edilməli və turizm rekreasiya əhətdən qiymətləndirilməlidir. Fikrimizcə, mağara qayaları üzərində yonulmuş yazıları oxumaqla, eləcə də burada arxeoloji tədqiqatlar aparmaqla Azərbaycan tarixinə yeni-yeni səhifələr yazılacaqdır.

İlk növbədə, mağarada qayalar üzərində yazılmış qədim türk xalqlarına məxsus yazılarımız qədim türk xalqlarına məxsus bu yazıların qorunması və onların elmi tədqiqi, oxunması təmin olunmalıdır.

*Kaha dərəsinin giriş hissəsində yerləşən və yerli əhali tərəfindən dağıdılan məbəd üzərindəki daş yazılar da qorunmalı və araşdırılmalıdır.*

**Nigar BABABƏYLİ**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***
**Gövhər CƏLİLOVA**
***Şahbuz Dövlət Təbiət Qoruğunun əməkdaşı***



Dərənin sol mağaraları



Keçid-daş qapı və qayalar üzərində yonulmuş su kanalı

## "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihəsi uğurla icra olunub



*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi "İcma Quruculuğu Təşəbbüsləri" proqramı çərçivəsində "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihəsinin icrası təmin olunmuşdur. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində tədbir keçirilmişdir.*

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirmişdir ki, ötən illərdə olduğu kimi Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən qadınların sahibkarlıq fəaliyyətlərinin dəstəklənməsi ilə bağlı cari ildə də muxtar respublikada yaşayan qadınlara iqtisadi dəstək göstərilməsi məqsədilə növbəti layihənin icrası təmin olunmuşdur. Layihənin icrası muxtar respublikada qadınların məşğulluqlarının artırılmasına xidmət etməklə yanaşı, ailə təsərrüfatlarının, həmçinin gələcəkdə muxtar respublikada mikro və makrobiznes sahələrinin inkişafına kömək etmək məqsədi daşıyır. Layihə çərçivəsində maliyyə savadlılığı üzrə "Gələcəyini planlaşdır!", biznes planlaşdırılması üzrə "Sahibkar ol!" adı altında təlimlər keçirilmişdir. Təlimlərdə Şərur, Ordubad, Babək, Şahbuz, Kəngərli rayonlarının hər birindən 2, Culfa, Sədərək rayonlarından 3, Naxçıvan şəhərindən isə 12 nəfər olmaqla, ümumilikdə, 28 sağlamlıq imkanları məhdud və sosial qayğıya ehtiyacı olan qadının iştirakı təmin olunmuşdur.

Qeyd olunmuşdur ki, təlimlərin sonunda iştirakçılar tərəfindən biznes planlar hazırlanmış, ən uğurlu biznes planı hazırlayıb təqdim edən qadınlara öz potensiallarına uyğun sahələr üzrə sərmayə kapitalları verilmişdir. Müvafiq layihə 2021-ci ilin aprel-avqust ayları ərzində həyata keçirilmişdir. Layihə çərçivəsində 20 nəfərə maksimum 500 ABŞ dolları sərmayə kapitalı verilməsi nəzərdə tutulmuşdur. Lakin qadınların maraqları, müraciətləri və ehtiyacları nəzərə alınaraq 26 qadına sərmayə kapitalı verilmişdir.

Vurğulanmışdır ki, ümumilikdə, layihə çərçivəsində verilən sərmayə kapitallarının dəyəri 17 min manat təşkil etmişdir. Sərmayə kapitalı almış qadınlar üçün öncə VÖEN-lər açılmış və alacaqları vəsaitlər bank hesablarına köçürülmüşdür. Layihədə iştirak edən qadınlarla Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən müqavilələr bağlanmış, ümumilikdə, 26 qadına sərmayə kapitalı verilmişdir. Həmin sərmayə kapitallarının 70 faizi ailə təsərrüfatını genişləndirmək və ya qurmaq, 30 faizi isə dərzilik, xalçaçılıq, dekorativ-tətbiqi sənət, silahsazlıq, toxuculuq sahələri ilə məşğul olmaları üçün verilmişdir.

Komitə sədri çıxışının yekununda qadınların sahibkar kimi formalaşmasına və onların məşğulluqlarının təmin olunmasına göstərdiyi diqqət, qayğı və dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirmişdir.

Tədbirdə Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova layihə haqqında ətraflı məlumat vermiş, muxtar respublikada qadınlara göstərilən yüksək diqqət və qayğıdan ətraflı bəhs etmiş, bu cür layihələrin muxtar respublikada nəzərdə tutulan vaxtda və uğurla icra olunduğunu diqqətə çatdırmışdır. Layihə iştirakçıları Tovuz Məhərrəmova, Səkinə Qarayeva və Reyhan Salmanova çıxış edərək onlara və ailələrinə göstərilən qayğıya görə dövlətimizə və təşkilatçılara minnətdarlıqlarını bildirmişlər.

Sonra Azərbaycan Mikromaliyyə Assosiasiyası ilə qadınlar arasında bağlanmış müqavilələrin təqdimolunma mərasimi keçirilmiş, qadınlara verilmiş sərmayə kapitalının dəyərində alınmış aktivlərin bəziləri nümayiş edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Növbəti imtahanlar keçirilib

Dünən Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə əvvəlki illərin məzunları üçün orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan, iyun ayında keçirilən buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən şagirdlər üçün buraxılış imtahanı, eksternat qaydasında imtahan verənlər üçün buraxılış imtahanları keçirilib.

Respublikanın 15 şəhər və rayonunda təşkil edilən imtahanlar saat $10^{00}$-da başlanıb və 3 saat davam edib. 11 min 552 abituriyentin (şagird) iştirak etdiyi imtahanların idarə olunması üçün 53 imtahan binası, 892 imtahan zalı, 53 ümumi imtahan rəhbəri, 147 imtahan rəhbəri, 1098 nəzarətçi-müəllim, 106 buraxılış rejimi əməkdaşı (mühafizə), 53 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhər 5 və 14 nömrəli, Heydər Əliyev adına tam orta məktəb binalarında təşkil olunub. 610 şagirdin iştirak etdiyi imtahanın keçirilməsi üçün 51 zal, 8 rəhbər, 62 nəzarətçi ayrılıb. İmtahanda şagirdlərə xarici dil üzrə 30, Azərbaycan dili üzrə 30 və riyaziyyat üzrə 25 olmaqla, ümumilikdə, 85 test tapşırığı təqdim olunub.

Nəticələr yaxın günlərdə *http://dim.gov.az* saytında yerləşdiriləcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

Oxunması zəruri olan kitablar

# Əli və Nino:
## sevgi və müharibə paralelliyində multikultural mesaj



*Dünyanın 33 dilinə tərcümə olunan və 66 ölkəsində nəşr edilən "Əli və Nino" adından başlayaraq axırına kimi sevgi və tarix paralelliyində davam edən milli və bir o qədər də başəri romandır.*

*Birinci şəxsin təkində nəql olunan romanın ilk cümləsi birbaşa Şərq və Qərbin sərhədləri arasında sıxışdırılmış Bakı həyatının güzgüsüdür. Bu güzgüdə isə mövzumuzun adında da özünü göstərən mesajın əksini görürük.*

"Bakıdakı rus gimnaziyasının üçüncü sinfində biz qırx şagird idik: otuz nəfər müsəlman (bunu türk də oxumaq olar – E.Y.), dörd erməni, iki polyak, üç sektant və bir nəfər rus". Bu sinifdə professor Sani Avropa və Asiyanın sərhədlərini müəyyən edəcək mövqeyi şagirdlərin çiyinlərinə yükləyir: "Balalarım! Şəhərimizin qabaqcıl Avropaya, yaxud geridə qalmış Asiyaya aid olduğunu müəyyən etmək sizin mövqeyinizdən asılıdır".

Mənim şəxsi, subyektiv fikrimcə, Əli xanın altşüuruna bu fikir böyük təsir göstərir və o, heç vaxt tərk etmək istəmədiyi Bakısını "vəhşi" Asiyadan mədəni Avropaya qovuşdurmaq üçün milli zəmin üzərində başəri düşüncələr cücərtməyə başlayır. Amma yenə də Əli xan Asiyasını Avropaya əzdirmək istəmir. Bu mövzuda sevgi də onun İçərişəhər divarları arasındakı dünyasını divarın o üzündəki dünyaya əyilməyə güzəştə getmir: "Bakı şəhərinin mübahisəli coğrafi vəziyyəti məni dünyanın ən gözəl gözlərindən məhrum etdi".

Romanı oxuduqca elə bilirsən ki, təhkiyəni nəql edən – müəllif davamlı Şərqi, Asiyanı, "vəhşi" mədəniyyəti ələ salır. Lakin bu belə deyil. Çünki müəllif həm də romanın qəhrəmanıdır, Əli xandır. Yaxud Əli xan obrazı müəllifin bədiiləşmiş xarakteridir. Bu barədə ətraflı danışmaq olar, amma mövzumun ana xəttindən uzaqlaşmaq istəmirəm.

"Əli və Nino" dastan adını xatırladır... Sevgi hekayətlərini... Bura "Leyli və Məcnun", "Xosrov və Şirin", "Arzu və Qəmbər", "Əsli və Kərəm", "Şeyx Sənan və Xumar", "Ruslan və Lyudmila", "Romeo və Cülyetta" və bu kimi bir çox ayrı-ayrı xalqların şifahi hekayətlərindən alınmış mövzular əsasında yazılan əsərləri daxil edə bilərik. Adını çəkdiyim əsərlərin əksəriyyətindən fərqli olaraq "Əli və Nino" təkcə sevgi üzərində inkişaf edən süjet deyil. Burada sevginin ikinci bir paralel xətti də var. Bu, müharibədir. Roman boyu sevgi və müharibə bir qatarın iki relsi kimi hərəkət edir. Bir az irəli gedib deyim ki, bu relsdəki qatar əsərin sonunda avropalı olmağa razı olan asiyalının doğulacaq övladını müharibənin əlindən qurtarıb gələcəyə aparır. Yəni müharibə deyil, sevgi qazanır.

Paralel relslərə qayıtmaq istəyirəm. Sevgi və müharibəyə. Qəribədir ki, nə qədər paralel inkişaf etsə də, süjet boyu hər iki anlayış, eyni zamanda üz-üzə gəlir, qarşı-qarşıya dayanır. Fizika və riyaziyyat qanunlarını alt-üst edən sevgi və müharibə paralelliyində təzadlı qarşıdurma boy göstərir. Sevgini yaşamış və müharibələri – məhz əsərdə bəhs edilən müharibələri yaxşı bilən hazırlıqlı oxucu paradoksal mətnin içindən qarışıqlığa düşmədən çıxa bilər.

Təhkiyədə Avropa və Asiya qarşıdurması hədsiz dərəcədə çoxlu müqayisələrlə göstərilə bilər. Kipiani ailəsinin stol arxasında çəngəl-bıçaqla, Şirvanşir ailəsinin isə xalça üzərində oturub əliylə yemək yeməsi, Avropa saraylarında knyaz və qeysər xanımlarının geyimi ilə Şərq qadınının çadrası, Berlində bir operadakı kök qadının eybəcər şəkildə oxumasının Tehranda yandırılan kafir qadının qışqırtısı qədər dəhşətli olması və bu kimi bir çox məqamlar.

Yenidən sevgi və müharibəyə qayıtmaq istəyirəm. Bu dəfə Əli və Nino sevgisini yox, Əli xanın Vətən sevgisini müqayisə predmeti kimi nəzərə alaq. Romanın yazıldığı, təxminən, 100 il bundan öncə ilə bu günümüzü müqayisə edək. Şuşa və Qarabağ atını minən çar generalı erməni Mədətov. Əli xana dost kimi davranıb onun Şərq humanistliyindən istifadə edərək sirlərini mənimsəyən və sevgisini alıb qaçan Naxararyan. Şuşada evində kirayə qaldığı erməni Sünikin Şuşadakı Maraş kilsəsinin beş min il yaşı olmasını söyləməsi və nəticədə, Əli xanın cavabı kimi xristianlığın heç 2 min il yaşı yoxdur deməsi, Bakının qala divarlarının o biri üzünün adamı olan hər iki erməni xəyanətkarlığını, milli psixologiyalarını müəllif 100 il əvvəl də göstərmişdi, bu gün də biz o pafoslu çürük iddiaları görürük. Naxararyanın sonu kimi Paşinyanların da sonu ortadadır. Qarabağ atını minən və Şuşada ən gözəl malikanəyə sahib olan Mədətov isə niyəsə mənə Şuşada villa tikdirmiş "Roma" klubunun məşhur futbolçusu Mıxitaryanı xatırlatdı. Mədətovun özünün olmayan atı, öz sahibinin – azərbaycanlı Əli xanın altında əsl Qarabağ atı cəhətini nümayiş etdirir və Avropa texnikası olan avtomobilə çataraq Şərq qeyrətini ortaya qoyur. Əli xanın Naxararyanı öldürməsi də iki nəfərin savaşı kimi xarakterizə olunmamalıdır. Bu, mənfur xalqın daimi xəyanət tərəfinin nəticəsində aldığı cəzanın 100 il əvvəlki reallığıdır.

Roman haqqında təəssüratlarım o qədər doludur ki, mümkün dərəcədə mövzudan kənara çıxmamağa çalışıram. Qısacası, Xanlıqlar dövrü və Sisianovun başı, Birinci Dünya müharibəsi, ötən əsrin əvvəllərindəki erməni-müsəlman davası, Rus-Osmanlı savaşları, Dağıstan xalqlarının mübarizəsi, Nuru Paşanın Bakını azad etməsi, Azərbaycanın müstəqilliyi uğrunda savaş və yenidən Bakının bolşevik Rusiyası tərəfindən işğalı; bütün bunların fonunda isə Əli xanın pulemyot arxasındakı vətənpərvərliyini müharibə vəhşiliyi kimi deyil, igidlik kimi qiymətləndirərək heyranlıqla, qorxu və sevgi içində seyr edən Nino.

Bunları da qeyd etmək istəyirəm: ilk dəfə 20 yaşımda 2000-ci ildə oxuduğum romanı sevgi kontekstində oxumuşdum. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiqlənən "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edildə ikinci dəfə təkrar oxudum. Bu dəfə müharibələrə daha çox diqqət ayırdım və hər dəfə mövzu ayrı-ayrı müharibələrə gəldikdə tarixin münasibətini öyrənməyə çalışdım. Bu il Novruz bayramı tətilində isə romanı üçüncü dəfə oxudum və bu dəfə sevgi və müharibənin fövqünə çıxıb mesaj axtarmağa çalışdım. Multikultural mesaj. Tapdımmı? Məncə tapdım: Əli xan bütün adət-ənənələrə rəğmən, ailə dəyərlərinə baxmayaraq, qatı islam qanunlarının kəskin qılıncı altında Bakı kimi təqdim olunan Azərbaycanın – Vətənin həm də multikultural bir məkan olduğunu oxucuya təlqin etməyə çalışan müəllifin uğurlu tapıntısıdır və bu obraz roman boyu öz funksiyasını yerinə yetirə bildi: "Mən Ninonu heç zaman çadra altında gizlətməyəcəm", – deyərək. Bəlkə də, o dövrün qanunlarına görə sərt etiraz idi, amma multikultural cəmiyyət üçün Əli xanın qərarı bugünkü Azərbaycanın gəlib çatdığı inkişaf səviyyəsidir.

Əsərin əvvəllərində Bakının təsviri zamanı verilən bir hissəni olduğu kimi, təqdim etmək istəyirəm: "Şəhəri qaranlıq bürümüşdü. Əslində, burada bir yox, iki şəhər var idi – elə bil bu iki şəhər qoz qabığı kimi bir-birinə yapışmışdı. Qoz qabığı qədim qala divarları xaricində yerləşən bayır şəhər idi. Orada küçələr enli, evlər hündür, insanlar isə pulpərəst və səs-küylü idi. Bu bayır şəhərin təməli bizim səhradan çıxan və var-dövlət gətirən neft idi. Orada teatr, məktəblər, xəstəxanalar, kitabxanalar, polis nəfərləri və çiyinləri açıq gözəl qadınlar var idi. Avropanın coğrafi sərhədi bayır şəhərdən keçirdi. Nino da bayır şəhərdə yaşayırdı.

Qala divarlarının daxilində isə evlər Şərq qalıncı kimi dar və ayrı idilər. Məscidlərin yumşaq buludları dələn minarələri Nobel ailəsinin buruq qüllələrindən tamamilə fərqlənirdi".

Yuxarıda vurğuladığım bir fikrimi qeyd edib yazımı yekunlaşdırmaq istəyirəm. Roman boyu sevgi və müharibə bir qatarın iki relsi kimi hərəkət edir, – demişdim. "Qatar Qərbə gedə bilər, amma bütün qəlbimlə, bütün ruhumla mən Şərqə mənsubam", – deyən Əli xan müharibənin qurbanı olsa da, "yaralansan, sənin yaralarını da sevərəm", – deyən Ninonu sevgi xilas edir. Təəssüf ki, bir gerçəklik də var. Sevgi olan yerdə mütləq müharibə var, müharibə olan yerdə isə qətiyyən sevgi olmur.

Son olaraq mənə görə, əsərin sevgi və müharibə paralelliyində vermək istədiyi mesaj bu iki cümlədə dilə gəlir: "Sən Asiyaya dözə bilmədiyin kimi, mən də Avropaya dözə bilməyəcəyəm. Gəl burada, Asiya ilə Avropanın hiss edilməyən şəkildə bir-birinə qarışdığı Bakıda qalaq".

Məhz Əli xanın bu sözlərindəki multikultural mesaja görə Şərq də, Qərb də, Avropa da, Asiya da, səhra da, şəhər də "Əli və Nino"nu oxumaqdan zövq aldı. "Nyu-York Times" qəzetinin də dediyi kimi: "Möhtəşəm əsərdir: adama elə gəlir ki, sanki xəzinə tapmısan".

Fikirlərim çoxdur, qaçaraq tezislər şəklində bu dəfəlik hələlik bu qədər.

**Elxan YURDOĞLU**
***filologiya üzrə fəlsəfə doktoru***

***Muxtar respublikanın mədəniyyət müəssisələri tərəfindən iyul ayında da müxtəlif tədbirlər keçirilmişdir. Həmin tədbirlərdən biri Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında N.V.Qoqolun "Müfəttiş" komediyası əsasında hazırlanmış eyniadlı tamaşanın nümayişi ilə Azərbaycan milli teatr tarixinə parlaq və şərəfli səhifələr yazmış Naxçıvan teatrının 138-ci mövsümünün başa çatması olmuşdur.***

# Mədəni tədbirlərin keçirilməsi davam etdirilmişdir



Həmçinin ötən ay Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təşkilatçılığı ilə görkəmli ədib Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində ev-muzeyinin yaradılmasının 40 illiyinə həsr olunmuş tədbir keçirilmiş, Azərbaycan və Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı ilə muxtar respublikada "Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi"nin Heydər Əliyev Sarayında keçirilən açılış tədbirinin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin və "Şərur" Xalq Yallı Ansamblının iştirakı ilə maraqlı konsert proqramı təqdim edilmişdir. İyulun 27-də "Zəfər Düşərgəsi"nin iştirakçıları üçün Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərləri əsasında hazırlanmış "Nizami Gəncəvi – 880" adlı kompozisiya nümayiş olunmuşdur.

"Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı yaradılmış "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə daxil edilməsi üçün ötən ay 2 yeni xalçanın pasportlaşdırılması ilə bağlı müvafiq iş aparılmışdır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların yay tətili günlərində asudə vaxtının səmərəli təşkili məqsədilə aid təşkilatlarla birgə bu qəbildən olan uşaqların muzeylərə 4 ekskursiyası təşkil edilmiş, Naxçıvan Dövlət Film Fondunda onlar üçün 4 film nümayiş olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq tərtib edilmiş qrafikə əsasən muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarənin, müəssisə və təşkilatların muzeylərə tanışlığı təmin edilmiş, Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikamıza səfər edən qonaqların, rəsmi nümayəndə heyətlərinin muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilmişdir. İyul ayında muxtar diyarımızda fəaliyyət göstərən muzeyləri 30 min 274 yerli, 3 min 254 əcnəbi olmaqla, ümumilikdə, 33 min 528 tamaşaçı ziyarət etmiş, muzeylərə 251 yeni eksponat daxil olmuşdur.

"Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilən kitablardan bir neçəsinin iyul ayında muxtar respublikanın kitabxanaları tərəfindən 20 müzakirəsi keçirilmiş, ay ərzində Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası, Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası və rayon (şəhər) Mərkəzləşmiş Kitabxana sistemləri tərəfindən ədəbi şəxsiyyətlərin yubileyləri, eləcə də əlamətdar və tarixi günlərlə bağlı 14 tədbir təşkil edilmiş, 20 sərgi nümayiş olunmuşdur. İyul ayında muxtar respublikanın kitabxanaları tərəfindən 23 sağlamlıq imkanları məhdud uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Ay ərzində muxtar respublikanın kitabxanalarına 416 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 8 min 149, kitab verilişi isə 38 min 219 nüsxə olmuşdur. Bundan başqa, ötən ay elektron kataloqa 702 adda kitab işlənərək onların sayı 25 min 595-ə çatdırılmışdır. Şəbəkəyə işlənmiş (PDF) kitabların sayı isə 30 olmuşdur ki, bununla da şəbəkədəki kitabların sayı 3 min 431-dən 3 min 461-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan 131 lokal, 379 qlobal olmaqla, 510 oxucu istifadə etmişdir.

İyul ayında Şahbuz Rayon Mədəniyyət Şöbəsinin musiqi kollektivləri tərəfindən Ağbulaq İstirahət Mərkəzində şəhid, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, həmçinin aztəminatlı ailələrin uşaqları və gənclər üçün təşkil olunmuş "Yay məktəbi"nin iştirakçılarına konsert proqramları təqdim edilmişdir.

Ötən ay Film Fondu tərəfindən xüsusi kateqoriyadan olan uşaqlar üçün 4, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri üçün 2, muxtar respublika sakinləri üçün isə Naxçıvan şəhərindəki "Əylıncə adası" istirahət mərkəzində açıq havada 8 olmaqla, 14 film nümayiş etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# "Yay məktəbi"ndə növbəti STEAM dərsləri

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təlimçiləri tərəfindən tələbələr üçün təşkil edilən "Yay məktəbi"ndə növbəti STEAM dərsləri keçilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin təşkilatçılığı ilə keçirilən "Yay məktəbi"ndə iştirak edən 60 tələbəyə STEAM üzrə təlimçilər tərəfindən 3D modelləşdirmə, 3D çap, müxtəlif növ printerlərdə çap qaydaları, mühəndislik dizayn həlləri və digər bu kimi mövzularda praktik biliklər verilib.

Təhsil Nazirliyinin STEAM üzrə təlimçi-müəllimi Fuad Babayev ilk olaraq "Tinkercad" proqramının ön pəncərəsi haqqında məlumat verib, ilkin həndəsi fiqurlarla modellərin hazırlanması qaydası, hazırlanmış modellərin 3D printerlərə yönləndirilib çap edilməsi tələbələrə izah olunub.

Sonda tələbələr "Tinkercad" proqramı vasitəsilə hazırladıqları ilkin modellərini 3D printerlərdə çap ediblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Seyidov Orxan Miriş oğlunun adına olan Ad-0047404 seriya nömrəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Mərdanov Cahan Ceyhun oğlunun adına olan MN-0058123 nömrəli zabitin şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 638